# Mənəvi irsimizin fədakar tədqiqatçısı

Azərbaycan xalqının tarixi, siyasi, dini, elmi, ideoloji böyük alimləri var ki, onlar gizlənmiş xəzinələrdir. Bu xəzinələri tanımaq, onların həyat yolu ilə maraqlanmaq, onların əsərlərindən bəhrələnmək hər birimiz üçün vacib amildir. Belə böyük alimlərimizdən biri də çox hörmətli Kamandar müəllim Şərifovdur. Kamandar müəllim elm mücahididir. Bütün həyatını, ömrünü bizim qızıl fondumuz hesab edilən əlyazmalar institunda keçirərək qiymətli kəşflər edib, qədim xəzinələrimizi araşdırıb üzə çıxarıb. Kamandar müəllim həyatı boyu gənclərə elm, bilgi, xəzinə mənbələrindən istifadənin yolunu öyrədən böyük şəxsiyyətlərimizdən biridir. Onu tanımaq və tanıtdırmaq hər birimizin borcudur.

Dəyərli müəllimiz Kamandar müəllim 20 yanvar 1940-cı ildə Qərbi Azərbaycanın Ləmbəli kəndində anadan olmuş, 1959-cu ildə Ləmbəli 2 saylı orta məktəbini bitirmiş və 1959-1962-ci illərdə Ordu sıralarında hərbi xidmətə getmişdir. O,1963-1968-ci illər Azərbaycan Dövlət Universitetinin – indiki Bakı Dövlət Universitetinin Şərqşünaslıq fakültəsində təhsil almışdır. 1966-1967-ci illərdə Misir Ərəb Respublikasının Qahirə Universitetinin filologiya fakültəsində təhsilini davam etdirmişdir. 1968-1970-ci illərdə Misir Ərəb Respublikasında uzunmüddətli ezamiyyətdə olmuşdur. 1971-1972-ci illərdə Azərbaycan Elmlər Akademiyası Respublika Əlyazmalar Fondunda kiçik elmi işçi vəzifəsində işləmiş və 1973-1977-ci illərdə Azərbaycan Elmlər Akademiyası Respublika Əlyazmalar Fondunda elmi katib vəzifəsində çalışmışdır. Əlyazmalar instituna qədəm qoyandan bu dövrə qədər elmi xəzinəmizə aid çoxlu əsərlər, kataloqlar yazıb əsrəyə gətirmişdir.

1984-cü ildə “Əbdülqəni Nuxəvi Xalisəqarızadə və onun ədəbi-mətnşünaslıq fəaliyyəti”mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir. 1985-ci ildə Dünya gənclərinin Moskvada keçirilən festivalında iştirak etmişdir. 1986-2012-ci illərdə Bakı Dövlət Universiteti Şərqşünaslıq fakültəsində “Mətnşünaslıq” fənnindən dərs demişdir. 1986-1987-ci illərdə Azərbaycan Elmlər Akademiyasının Əlyazmalar İnstitutunda “Ərəb əlyazmaları” şöbəsinin müdiri vəzifəsində işləmişdir. 1987-1990-cı illərdə Yəmən Demokratik Respublikasında uzunmüddətli ezamiyyətdə olmuşdur.1990-1991-ci illərdə Azərbaycan Elmlər Akademiyası Əlyazmalar İnstitutunda böyük elmi işçi vəzifəsində işləmişdir.1-5 oktyabr 1991-ci ildə “Şərq: Xalqların keçmişi və gələcəyi” mövzusunda şərqşünasların Mahaçqala şəhərində keçirilən Ümumittifaq IV konfransında məruzə ilə çıxış etmişdir. 1992-ci ildən indiyədək Azərbaycan Milli Elmlər Akademiyası Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu “Ərəbdilli əlyazmaların tədqiqi” şöbəsinin müdiri vəzifəsində çalışır.

Çalışdığı müəssisədə demək olar ki, indi də dayanmadan əlyazmaları tədqiq edir, yeni-yeni arxivləri üzə çıxarır, elmi baxımdan faydalı hesab edilən əlyazmaların tətqiqi, təsviri, kataloqlaşdırılması istiqamətində gərgin əmək sərf edir. Cəsarətlə deyə bilərik ki, onun gərgin əməyi sayəsində Əlyazmalar institunda hər il kataloqlar nəşr edilir. Kamandar müəllim 19 iyun 2006-cı il “Azərbaycan mətnşünaslığı” mövzusunda filologiya üzrə elmlər doktoru dissertasiyası müdafiə etmişdir. 2009-cu ildən bu günədək Azərbaycan Milli Elmlər Akademiyası Z.Bünyadov adına Şərqşünaslıq institunda filologiya elmləri namizədi alimlik dərəcəsi verən ixtisaslaşdırılmış müdafiə şurasının üzvüdür. 6-7 oktyabr 2009-cu ildə Azərbaycanın görkəmli şərqşünas alimi, professor Aida İmanquliyevanın 70 illik yubileyinə həsr olunmuş “Şərqşünaslığın aktual problemləri” mövzusunda Bakı Dövlət Universitetində keçirilmiş konfransda məruzə ilə çıxış etmişdir. 9-11 oktyabr 2009-cu ildə Aida İmanquliyevanın 70 illik yubileyinə həsr edilmiş “Şərq və Qərb: Ortaq mənəvi dəyərlər, elmi-mədəni əlaqələr” mövzusunda Bakıda keçirilən beynəlxalq konfransda məruzə ilə çıxış etmişdir. 20-24 mart 2009-cu ildə Təbriz şəhərində səfərdə olmuşdur.

Zəhmət dolu həyatını elm rəngləri ilə naxışlayan dəyərli alim hər bir tədqiqatçının yoluna nur ələyir. Bununla yanaşı, Kamandar Şərifov indiyədək bizə məlum olmayan Azərbaycan ədəbiyyatı nümunələrinin aşkar edilərək, öyrənilməsi sahəsində də az iş görməmişdir.



Elə isə bəzi məqamların incəliklərinə diqqət yetirilməsinə ehtiyac var. Stolüstü kitablarımızdan biri də onun müəllifi olduğu “Mətnşünaslığın əsasları” monoqrafiyasıdır. Bu kitab mətnşünaslıq elminin nəzəri ensiklopediyası kimi aktuallığını daim saxlayan qiymətli mənbədir. Onun uzun illər boyu respublika ərazisində apardığı axtarışlar sayəsində Şərq, eləcə də Azərbaycan mədəniyyəti tarixini öyrənmək baxımından çox dəyərli olan yüzlərlə orta əsr yazılı abidələri toplanaraq, Əlyazmalar İnstituna gətirilmişdir. Bu əlyazmalar arasından onun üzə çıxararaq, tədqiq və nəşr etdiyi XIV əsr şairi Ümmi İsanın “Mehri və Vəfa” məsnəvisi elm aləmində böyük maraqla qarşılanmışdır. Klassik Azərbaycan ədəbiyyatının və bədii söz sənətinin dəyərli incilərindən olan bu məsnəvi dilinin arxaikliyi və xalq dilinə yaxınlığı ilə fərqləndiyinə görə, dilimizin inkişaf mərhələlərini öyrənmək baxımından çox dəyərli bir mənbədir.

K.Şərifovun çoxcəhətli elmi yaradıcılığı indiyədək öz həllini tapmamış bir sıra mühüm məsələləri əhatə etməsi, tədqiqatlarının geniş miqyası, qoyulan məsələlərin aktuallğı ilə seçilir. Onun tədqiqat işləri arasında ədəbiyyatşünaslığımızda öyrənilməmiş klassik mətnşünaslığın araşdırılması, bu elm sahəsinin nəzəri problemlərinin öyrənilməsi mühüm yer tutur. K.Şərifov yalnız Azərbaycanda deyil, dünya şərqşünaslığında ilk dəfə olaraq Əlyazmalar İnstitutunda, Yaxın və Orta Şərq ölkələrinin kitabxana və muzeylərində saxlanılan orta əsr türkdilli, farsdilli və ərəbdilli yazılı abidələr əsasında Azərbaycan mətnşünaslığının nəzəri problemlərini araşdırmış və 2006-cı ildə “Azərbaycan mətnşünaslığı” mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. Bu elmi işdə müəllif sübut edir ki, mətnşünaslığın ilkin qaynaqları eramızdan əvvəlki dövrlərlə bağlı olsa da, Müsəlman Şərqində bu sahə başlanğıcını Quran və hədislərin düzgün mətnlərinin tərtibindən götürür. Bundan sonra isə Xətib Təbrizi, Yusif Tahir Xoylu, Dostməhəmməd Daraxçı, Saib Təbrizi, Hacı Mirzə Məhəmməd, Əbdülqəni Xalisəqarızadə, Mirzə Kazımbəy və başqa Azərbaycan alimlərinin elmi fəaliyyəti nəticəsində mətnşünaslıq inkişaf etdirilərək, XIX əsrin ikinci yarısında bir elmi sahə kimi formalaşmağa başlamışdır. Elmi işdə klassiklərin əsərləri nüsxədən-nüsxəyə köçürülürək çoxaldılarkən ayrı-ayrı ədəbi məktəblərə, fəlsəfi cərəyanlara və dini təriqətlərə mənsub olan katiblərin yol verdikləri təhriflər, onların növləri və səbəbləri ilk dəfə ümumiləşdirilmişdir. Bu isə istər orta əsr mətnşünaslığının öyrənilməsi baxımından, istərsə də müasir tekstoloji tədqiqatlar üçün mühüm əhəmiyyət kəsb edən problemdir. Akademik Möhsün Nağısoylu və filologiya elmləri doktoru, professor Azadə Musayeva bu tədqiqatın əhəmiyyəti barədə yazırlar ki, bu iş “ədəbi-tənqidi fikir tarixinin öyrənilməsi istiqamətində aparılmış fundamental bir tədqiqat əsəri olmaqla yanaşı, həm də ümumtürk, ərəb və fars mətnşünaslığı və onların nəzəri əsaslarının öyrənilməsi üçün böyük imkan verir”. Təsadüfi deyildir ki, K.Şərifovun “Mətnşünaslığın əsasları” adlı kitabı respublika ali məktəblərində mətnşünaslığın tədrisi sahəsində dərslik kimi istifadə olunur. Onun digər tədqiqatları da ali məktəblərin ayrı-ayrı fakültələrində, xüsusən filologiya və kitabxanaçılıq fakültələrində tədris prosesində istifadə edilir.

O, Azərbaycan əlyazma kitab mədəniyyətinin öyrənilməsi istiqamətində də az əmək sərf etməmişdir. Filologiya elmləri doktoru, professor Bayram Allahverdiyev yazır ki, “Müasir dövrdə Azərbaycan kitabşünaslığı görkəmli alim Kamandar Şərifovun bir sıra qiymətli elmi əsərləri, monoqrafiyaları, o cümlədən “Mətnşünaslıq” (2001), “Mətnşünaslığın əsasları” (2003), “Əbdülqəni Nuxəvi Xalisəqarızadə” (2001), “Azərbaycan mətnşünaslığının təşəkkülü və inkişafı” (1996), “Alim, pedaqoq və kitabşünas” (2007), “Azərbaycan əlyazma kitabı və kitabxanaları” (2009) və s. ilə də xeyli inkişaf etmiş, zənginləşmişdir”. K.Şərifovun kitabşünaslıq sahəsində bu xidmətləri nəzərə alınaraq onun əsərləri B.Allahverdiyevin rəhbərliyi və redaktorluğu ilə 2003-cü ildə BDU-da nəşr edilmiş “Azərbaycan kitabşünaslığı” adlı biblioqrafik göstəriciyə də daxil edilmişdir.

K.Şərifovun 1993-cü ildə çap etdirdiyi (Arif Ramazanovla) M.M.Nəvvabın “1905-1906-cı illərdə erməni-müsəlman davası” adlı əsəri Azərbaycan ziyalılarının həmişə ayıq olduğunu, düşmənlərimizə kəskin və tutarlı cavab verməyə qadir olduğunu bir daha sübut etdi. K.Şərifovun nəşr etdirdiyi bu kitabı və erməni məsələsi ilə bağlı başqa əsərləri Gözəl İsmayılqızının tərtib etdiyi “Mir Möhsün Nəvvab” biblioqrafiyasına daxil edilmişdir.

Dahi Azərbaycan alimi və mütəfəkkiri Nəsirəddin Tusinin 800 illik yubileyi münasibəti ilə onun orta əsrlərdə tələbəlik mədəniyyətinə, təlim-təhsil qaydalarına həsr edilmiş “Əbdülmütəllimin” əsərini ərəb dilindən ilk dəfə tərcümə edən də Kamandar Şərifovdur.

K.Şərifov Əlyazmalar İnstitutunda saxlanılan yazılı abidələrin elmi təsviri və kataloqlaşdırılması sahəsində də ciddi xidmətləri vardır. O, ərəbdilli əlyazmalar kataloqunun I (1984; 2008), II (2000), III (2007) və IV (2019) cildlərinin müəlliflərindən olmaqla bərabər, II, III və IV cildlərin tərtibçi və redaktorudur. Bundan başqa, tədqiqatçı Əbdülqəni Nuxəvi Xalisəqarızadənin kitabxanasındakı orta əsr əlyazmalarının kataloqunun I (2010) cildini və ərəbdilli əski çap kitabları kataloqunu hazırlayaraq nəşr etdirmişdir.

İndiyədək K.Şərifovun “Azərbaycan mətnşünaslığının təşəkkülü və inkişafı” (1996), “Mətnşünaslıq” (2001), “Əbdülqəni Nuxəvi Xalisəqarızadə” (2003), “Mətnşünaslığın əsasları” (2001), “Alim, pedaqoq və kitabşünas” (2007), “Azərbaycan əlyazma kitabı və kitabxanaları” (2003), “Mətnşünaslığın nəzəri əsasları” (2011) adlı monoqrafiyaları işıq üzü görmüşdür.

Digər kitabları:“İsa. Mehri və Vəfa” (2000), “Əbdülqəni Nuxəvi Xalisəqarızadə” (2002), Nəsirəddin Tusi. “Ədəb ül-mutəəllimin (tərcümə, 2002), “Alim, pedaqoq və kitabşünas” (2007), “Əbdülqəni Əfəndi Nuxəvi Xalisəqarızadə. Qazıxana dəftəri” (2008), “Azərbaycan əlyazma kitabı və kitabxanaları” (2009), “Əbdülqəni Nuxəvi Xalisəqarızadə. Farsi təkəllüm risaləsi” (2014), “Misirin “Dərül-kutub vəl-vəsaiqül-qaumiyyə” kitabxanasındakı Azərbaycan əlyazmaları” (2014), “Mir Möhsün Nəvvab. 1905-1906-cı illərdə erməni-müsəlman davası” (2014), “Əbdülqəni Nuxəvi Xalisəqarızadə” ( 2014), “Mir Möhsün Nəvvab. 1905-1906-cı illər erməni-müsəlman davası (ingilis dilində)” (2015), “Ömürdən yarpaqlar-gördüyüm torpaqlar” (2015), “Ümmi İsa. Mehri və Vəfa” (2017), Kamandar Şərifli. Əsərləri. I-IV cild (2019).

K.Şəriflinin “Əsərləri” kitabının I cildində: “Şəki XIX yüzillikdə”, “Ulu nəvənin ulu nənəsi”, “Ulu nənənin ulu nəvəsi”,“Elm və maarif carçısı”, “Mətnşünas alim”, “Elm xəzinəsi”, “Elm xəzinəsindən əldə edilmiş abidələr”,“Xalisəqarızadə övladları” bəhs olunur.

Kamandar müəllimi gizlənmiş xəzinəmizin açarı hesab edirəm. Görkəmli Misir alimi əs-Səxavinin “ət-Təhsil vəlbəyan fi siyaq qissəti əs-Seyyid Salman” əsərinin tədqiqi mövzusunda dissertasiya işimdə, alimlik dərəcəsi alınmasında Kamandar müəllimin hədsiz zəhməti olmuşdur. Ona xeyirli uzun ömür, can sağlığı elm yolunda fədakarlığında uğurlar arzu edirəm.



*Əkrəm* Həsənov
***AMEA. M. Füzuli adına Əlyazmalar İnstitunun “ərəbdilli əlyazmaların tədqiqi” şöbəsinin aparıcı elmi işçisi, ilahiyat üzrə fəlsəfə doktoru, dosent***